**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**12.10.2023-cü il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 1**

## *İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:*

I. 1. “2022/2023-cü tədris ilində dekanlığın gördüyü işlərin hesabatı və yeni dərs ilində fakültə kollektivinin vəzifələri” barədə İctimai Səhiyyə Fakültəsinin dekanlığı tərəfindən hazırlanmış və fakültənin akademik məsləhətçisi N.Məmmədovanın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin.

II. İctimai səhiyyə fakültəsinin “Universitetin inkişafı strategiyası” planının həyata keçirilməsi üzrə komissiyası təşkil edilsin. Komissiyanın sədri dos.Balayeva Ş.M. təyin edilsin.

III. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Kafedra tərəfindən İM-ə təqdim olunan testlərin ekspert professor-dosent heyəti tərəfindən yenidən baxılmasına (testlərin tərtibatı zamanı tədris proqramına, istinad edilən ədəbiyyatların tədrisdə istifadə olunan materiallara uyğunluğu, testlərdə 2 və ya daha çox düzgün cavabın olmaması və s.) nəzarət edilsin;

2. Kafedranın ekspertləri tərəfindən hazırlanan və İM-ə təqdim olunan testlərə kafedra müdiri məsuliyyət daşıyır;

3. Dərslərin keyfiyyətini yüksəltmək və səmərəliliyini artırmaq məqsədilə kafedralarda tədris prosesinin gedişinə və nizam-intizam qaydalarına ciddi nəzarət edilsin;

4. ATU-nun əməkdaşlarının xarici ölkələrə səfərlərinin qeydiyyat prosedurunda dəyişikliklər edilmişdir və qeydiyyat elektron varianta keçirilib. Bununla əlaqədər olaraq, kafedraların əməkdaşlarının nəzərinə çatdırılsın ki, xaricə səfər zamanı ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin internet saytında “Xarici ölkələrə icazələrin qeydiyyatı” bölməsinə daxil olsunlar və planlaşdırılan səfərdən ən azı 1 həftə öncə qeydiyyatdan keçsinlər.

IV. Elmi Şuranın qərarları kafedra iclaslarında 3 iş günü müddətində müzakirə olunsun və protokol dekanlığa təqdim olunsun.

V. Dekanlığa tapşırılsın ki, Elmi Şurada verilən qərarların icrasına nəzarət etsin.

Sədr: dos. Qalina Qəniyeva

Elmi katib: dos. Gülnarə İbrahimova

.